# BOLT QİDA XİDMƏTİ MƏXFİLİK SİYASƏTİ

**MÜNDƏRİCAT**


- BOLT VƏ BU SİYASƏT HAQQINDA
- BİZ MÜŞTƏRİNİN HANSI NÖV FƏRDİ MƏLUMATLARINI TOPLAYIR VƏ İŞLƏYİRİK
- MÜŞTƏRİNİN FƏRDİ MƏLUMATLARININ SAXLANMASI
- BİZ KURYER XİDMƏTİ GÖSTƏRƏN ŞƏXSLƏRİN HANSI NÖV FƏRDİ MƏLUMATLARINI TOPLAYIR VƏ İŞLƏYİRİK
- KURYERİN FƏRDİ MƏLUMATLARININ SAXLANILMASI
- BİZ BU FƏRDİ MƏLUMATLARI NECƏ VƏ NİYƏ İSTİFADƏ EDİRİK
- AVTOMATLAŞDIRILMIŞ QƏRAR VERMƏ
- İSTİFADƏÇİLƏRƏ BİRBAŞA MARKETİNQ
- FƏRDİ MƏLUMATLARIN ÜÇÜNCÜ TƏRƏFLƏRƏ AÇIQLANMASI
- BİZ SİZİN FƏRDİ MƏLUMATLARINIZI NECƏ QORUYURUQ
- FƏRDİ MƏLUMATLARIN BEYNƏLXALQ ÖTÜRÜLMƏSİ
- SİZİN FƏRDİ MƏLUMATLARINIZA MÜNASİBƏTDƏ HÜQUQLARINIZ
- ÜÇÜNCÜ TƏRƏF KEÇİDLƏRİ ● SUALLAR VƏ YENİLƏMƏLƏR

## BOLT VƏ BU SİYASƏT HAQQINDA

**“Bolt”** adı altında ticarətlə məşğul olan **"Bolt Services AZ" Məhdud Məsuliyyətli Cəmiyyəti** (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi 1503463041 olan, AZ1029, Bakı şəhəri, Nərimanov rayonu, Mərkəzi Kommunikasiya, ev 1965 ünvanı üzrə yerləşən
Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş məhdud məsuliyyətli cəmiyyət) (bundan sonra “**Bolt**” və ya “**biz**” kimi istinad ediləcək);

Bolt sizin fərdi məlumatlarınıza münasibətdə fərdi məlumatların mülkiyyətçisidir. Bolt həmçinin sizin fərdi məlumatlarınızı öz əlaqəli şirkəti “Bolt Operations OÜ” şirkətinə (qeydiyyat nömrəsi 14532901, ünvanı Vana-Louna 15, 10134, Tallinn, Estoniya, e-poçt ünvanı privacy@bolt.eu) ötürür, o isə məlumatları Aİ-nin Ümumi Məlumatların Mühafizəsi Qaydalarına riayət edərək işləyir. Bu məxfilik siyasəti və ya fərdi məlumatlarınızla bağlı hər hansı bir sualınız və ya narahatlığınız olarsa, aşağıdakı "Suallar və yeniləmələr" bölməsində göstərilən əlaqə məlumatları vasitəsilə bizimlə əlaqə saxlaya bilərsiniz.

Bolt, Bolt Qida Xidməti tətbiqinin quraşdırılması və istifadəsi zamanı və müvafiq istifadə şərtlərinə uyğun olaraq qeydiyyat və tanışlıq, habelə xidmətlərin göstərilməsi ilə əlaqədar olaraq fərdi məlumatları toplayır və işləyir. Nəzərə alın ki, coğrafi yer məlumatlarının işlənilməsi ümumiyyətlə Bolt Qida Platformasının istifadəsi üçün zəruridir.
Bolt həmçinin veb saytlarımıza baxaraq və tətbiqlərimizdən istifadə etməklə bizimlə qarşılıqlı əlaqədə olan şəxslər haqqında fərdi məlumatları toplaya bilər.

Veb saytlarımızdan, tətbiqlərimiz və xidmətlərimizdən istifadə edərək, siz fərdi məlumatlarınızı bu məxfilik siyasətinə uyğun olaraq işlədiyimizi/beynəlxalq olaraq ötürdüyümüzü qəbul edirsiniz.

## BİZ MÜŞTƏRİNİN HANSI NÖV FƏRDİ MƏLUMATLARINI TOPLAYIR VƏ İŞLƏYİRİK

Fərdi məlumatlar ümumiyyətlə Bolt Qida ilə müqavilə əsasında xidməti təmin etmək üçün işlənilir. Bolt Müştərilər haqqında aşağıdakıları ehtiva edən məlumatlar toplayır:

- tətbiqin quraşdırılması zamanı toplanılan ad, telefon nömrəsi, e-poçt ünvanı daxil olmaqla, bioqrafik və əlaqə məlumatları;
- Bolt tətbiqi vasitəsilə edilən Sifariş(lər) ilə əlaqəli məlumatlar və hər Sifarişlə əlaqəli məlumatlar (Müştəri bu cür məlumatı vermək qərarına gələrsə, sifariş verilmiş Yeməklərlə bağlı xüsusi tələblər, məsələn, yeməyin bişirilməsi seçimləri, allergiyalar haqqında məlumat və s.), üstünlük verilən qidalar və s.;
- tətbiqə daxil olub istifadə etdiyiniz və sifariş verdiyiniz coğrafi yer (bu, xidmət üçün tələb olunur);

- hesab üçün qeydiyyatdan keçdiyiniz təqdirdə, istifadəçi kimliyiniz və şifrəniz, və seçimləriniz və hər hansı müvafiq reklam kodu kimi əlaqəli hesab məlumatlarınız;
- Facebook kimi üçüncü tərəfin xidməti vasitəsilə xidmətə qoşulmağı seçdiyiniz təqdirdə bu xidmətdəki məlumatlarınız;
- rəy reytinqləri (mübahisələrin həll edilməsi üçün verilən məlumat da daxil olmaqla); ● ödəniş məlumatları və ödəniş tarixçəsi;
- Müştəri olduğunuz zaman Yemək sifariş etmək üçün müraciətləriniz haqqında / Kuryer olduğunuz zaman coğrafi yer, xidmətin göstərilmə vaxtı, çatdırılma marşrutu və təyinat yeri daxil olmaqla, Yeməyin çatdırılmasını qəbul etməyiniz barədə məlumat; ödənilmiş qiymət və digər sifariş tarixçəsi; ● təqdim etdiyiniz mətn, şəkillər və digər istifadəçi məzmunu;
- biz sizə xidmətdən istifadəni qadağan etdikdə və ya dayandırdıqda, bu qadağa və ya dayandırma haqqında qeyd;
- quraşdırdığınız cihazın identifikasiya məlumatları;
- bizim saytlarımızdan və ya tətbiqlərimizdən istifadə edərkən çərəzlər və digər oxşar izləmə texnologiyaları tərəfindən toplanılan məlumatlar kimi veb sayt və əlaqə məlumatları;
- haqqında arayış verilmiş itirilmiş əşyaların qeydləri də daxil olmaqla, sizin verdiyiniz dəstək sorğularının (məsələn, tətbiqlərimiz vasitəsilə və ya digər əlaqə kanalları vasitəsilə) təfərrüatları; və
- dələduzluqdan əsaslı şəkildə şübhə etdiyimiz təqdirdə, dələduzluğun aşkarlanması və qarşısının alınması qurumları tərəfindən cinayətlərin və ya iddia edilən cinayətlərin təfərrüatları.

## MÜŞTƏRİNİN FƏRDİ MƏLUMATLARININ SAXLANMASI

Fərdi məlumatlarınız aktiv hesabınız olduğu müddətdə saxlanacaq. Hesabınız bağlandığı təqdirdə, fərdi məlumatlarınız verilənlər bazalarından silinəcək, təhlükəsiz şəkildə məhv ediləcək və ya anonimləşdiriləcək (bu hissədə göstərilən siyasətə əsasən), bu şərtlə ki, bu məlumatların, mühasibat uçotu, mübahisələrin həlli və ya dələduzluğun qarşısının alınması daxil olmaqla, qanuni və ya tənzimləyici məqsədlər üçün və ya müəyyən qanuni biznes məqsədləri üçün saxlanılması tələb olunmasın. Bu o deməkdir ki:

- Hər bir Sifarişlə əlaqəli məlumatlar, hər Sifarişin icrasından etibarən ən çox 3 il müddətində saxlanılacaqdır, bu şərtlə ki, bundan əvvəl Bolt tətbiqi bizim tərəfimizdən silinməsin.
- Mühasibat uçotu üçün tələb olunan məlumatlar hər bir Sifarişin yerinə yetirilməsindən sonra 5 il müddətində saxlanılacaqdır.
- Bolt tətbiqi 3 il müddətində istifadə edilmədiyi təqdirdə, biz sizə bildiriş verəcəyik və hesabın hələ də aktiv olub-olmadığını təsdiqləməyinizi xahiş edəcəyik. Heç bir cavab alınmadığı təqdirdə, hesab bağlanacaq və fərdi məlumatlar silinəcək, təhlükəsiz şəkildə məhv ediləcək və ya anonimləşdiriləcək, bu şərtlə ki, bu məlumatların, sonrakı 12 ay ərzində mühasibat uçotu, mübahisələrin həlli və ya dələduzluğun qarşısının alınması

məqsədləri daxil olmaqla, müəyyən qanuni biznes məqsədləri üçün saxlanılması tələb olunmasın.
- İnzibati xəta və ya cinayət, dələduzluq və ya yanlış məlumatın verildiyinə dair şübhələr olduğu təqdirdə, məlumatlar 10 il müddətinə saxlanılacaqdır.
- Mübahisələr və ya istintaq olduqda, məlumatlar iddia və ya istintaq təmin olunana / həll olunana və ya bu iddiaların qüvvədən düşməsinə qədər saxlanılır.

Nəzərinizə çatdıraq ki, Bolt tətbiqinin cihazınızdan silinməsi fərdi məlumatlarınızın avtomatik olaraq silinməsinə, məhv edilməsinə və ya anonimləşdirilməsinə səbəb olmur.

## BİZ ÖZƏL FƏRDİ KURYERLƏRİN HANSI NÖV FƏRDİ MƏLUMATLARINI TOPLAYIR VƏ İŞLƏYİRİK

Fərdi məlumatlar ümumiyyətlə Kuryer ilə bağlanmış müqavilənin icrası üçün işlənilir.
Biz özəl fərdi Kuryerlərin fərdi məlumatlarının aşağıdakı növlərini toplayırıq (həm birbaşa, həm də dolayı yolla, məsələn üçüncü tərəf mənbələrindən və ictimaiyyətə açıq məlumatlardan):

- ad, telefon nömrəsi, e-poçt ünvanı da daxil olmaqla,  bioqrafik və əlaqə məlumatları;
- bank və ya maliyyə məlumatları və ödəniş məlumatları;
- Kuryerlər tətbiqə daxil olduqda, coğrafi yerlər (bu, xidmət üçün tələb olunur);
- demoqrafik məlumatlar;
- istifadəçi kimliyi də daxil olmaqla hesab məlumatları;
- yerinə yetirilmiş Sifarişlərin təfərrüatları, səyahətlər və rəy reytinqləri və gündəlik səyahətlərin müddəti;
- təxmini gediş haqları, faktiki gediş haqları və digər ödəniş məlumatları;
- qazancların tarixçəsi və maliyyə məlumatları;
- təqdim etdiyiniz mətn, şəkillər və digər istifadəçi məzmunu;
- xidmətdən istifadə hüququnuza xitam verdiyimiz təqdirdə, xəbərdarlıq verdikdə, bu xitam və ya xəbərdarlıq haqqında qeyd;
- müvafiq Bolt tətbiqinin quraşdırıldığı cihazın identifikasiya məlumatları;
- bizim saytlarımızdan və ya tətbiqlərimizdən istifadə edərkən çərəzlər və digər oxşar izləmə texnologiyaları tərəfindən toplanılan məlumatlar kimi veb sayt və əlaqə məlumatları. Sizin verdiyiniz dəstək sorğularının (məsələn, tətbiqlərimiz vasitəsilə və ya digər əlaqə kanalları vasitəsilə) təfərrüatları;
- Kuryer tərəfindən həyata keçirilən çatdırılma ilə əlaqəli Müştəri şikayətləri;
- tibbi şəhadətnamələr, topoqrafik test şəhadətnamələri və / və ya dil test şəhadətnamələri də daxil olmaqla, yerli tələblərə uyğun olaraq məlumatların yoxlanılması;
- tətbiq edilən hüquqa əsasən icazə verildiyi və ya zəruri olduğu təqdirdə, cinayət üzrə məhkumluq və cinayətlərə dair məlumatlar;
- Boltda qeydiyyatdan keçdiyiniz zaman verdiyiniz hər hansı bir məlumatı yoxlamaq üçün sizin haqqınızda üçüncü şəxslərdən toplanan məlumatlar;

- sizin haqqınızda məlumat əldə etmək üçün hüquq-mühafizə, tənzimləyici, hökumət və ya məhkəmə qurumları tərəfindən edilən hər hansı sorğu haqqında qeyd.

Biz, qanunvericiliyə uyğunluğu təmin etmək üçün, habelə hər hansı bir çatdırılma xidməti keyfiyyət probleminin həlli və sizin uyğunluğunuzun davamlı olaraq izlənilməsi də daxil olmaqla, yeməyin çatdırılması peşəkar fəaliyyətini həyata keçirmək üçün Kuryerin ixtisas göstəricilərini yoxlamaq və Bolt tətbiq xidməti ilə əlaqəli müqavilə münasibətlərini qorumaq üçün Kuryerlərin fərdi məlumatlarını toplayır və işləyirik.

Boltun əməliyyat komandası Kuryerin coğrafi yerini, göndərilməsi haqqında məlumatlarını və xidmətdən istifadə vaxtlarını görə bilər.

## KURYERİN FƏRDİ MƏLUMATLARININ SAXLANILMASI

Siz fərdi məlumatlarınızı Bolt Kuryer Portalında görə bilərsiniz. Fərdi məlumatlarınız aktiv bir Kuryer hesabınız olduğu müddətdə saxlanılacaq, bu şərtlə ki, sizin fərdi məlumatlarınızın, mühasibat uçotu, mübahisələrin həlli və ya dələduzluğun qarşısının alınması da daxil olmaqla, qanuni və ya tənzimləyici məqsədlər üçün və ya müəyyən qanuni biznes məqsədləri üçün saxlanılması tələb olunmasın. Bu o deməkdir ki:

- Hesabınız bağlandığı təqdirdə, fərdi məlumatlar əlavə 3 il müddətinə saxlanılacaq.
- Mühasibat uçotu üçün lazım olan məlumatlar 7 il müddətində saxlanılır.
- İnzibati xəta və ya cinayət, dələduzluq və ya yanlış məlumatla bağlı şübhələr olduqda, məlumatlar 10 il müddətində saxlanılır.
- Mübahisələr və ya istintaq olduqda, məlumatlar iddia və ya istintaq təmin olunana / həll olunana və ya bu iddiaların qüvvədən düşməsinə qədər saxlanılır.

Artıq fərdi məlumatlarınıza ehtiyacımız olmadığı təqdirdə, onlar verilənlər bazalarından silinəcək, təhlükəsiz şəkildə məhv ediləcək və ya anonimləşdiriləcəkdir (bu hissədə göstərilən siyasətə uyğun olaraq).
Nəzərinizə çatdıraq ki, Bolt tətbiqinin cihazınızdan silinməsi fərdi məlumatlarınızın avtomatik olaraq silinməsinə, məhv edilməsinə və ya anonimləşdirilməsinə səbəb olmur.

## BİZ BU FƏRDİ MƏLUMATLARI NECƏ VƏ NİYƏ İSTİFADƏ EDİRİK

Bolt fərdi məlumatları Bolt tətbiqlərini təmin etmək və Boltun qanuni iş məqsədləri üçün toplayır və istifadə edir. Bunlara aşağıda göstərilən məqsədlər daxildir.

Azərbaycanın məlumatların qorunması qanunvericiliyinə əsasən, Boltun fərdi məlumatlardan istifadə etməsi bir sıra qanuni əsaslardan biri ilə əsaslandırılmalıdır. Bunlar da aşağıda verilmişdir.

Xidmətlərimizi sizə çatdırmaq üçün (qanuni əsas: sizinlə bağlanmış müqavilələrimizi yerinə yetirmək və icra etmək; və qanuni maraqlarımız üçün (xidmətlərimizi sizə təqdim etmək üçün).

- Fərdi məlumatları Bolt tətbiqlərimizi təmin etmək, istifadəçi hesablarınızı yaratmaq və idarə etmək və sizə rəy verməyə icazə vermək üçün istifadə edə bilərik.
- Müştəri olduğunuz təqdirdə, Sifariş müraciətinizi qəbul etmək üçün Sifarişinizi müvafiq Tərəfdaşa göndərmək və Tərəfdaş ilə hazırlanma müqaviləsi bağlamağınıza imkan yaratmaq üçün.
- Sizə Sifarişin çatdırılması müraciətini yerinə yetirmək üçün Kuryer tapmaq və təyin etmək üçün. Bu məlumatlar (coğrafi məlumatlar da daxil olmaqla) Kuryerə verilir.
- Bolt tətbiqi vasitəsilə sifarişinizi verdikdən sonra, əlaqəni asanlaşdırmaq üçün Tərəfdaşa və/və ya Kuryerə əlavə məlumat verilir (əlavə məlumat üçün "Fərdi məlumatların açıqlanması" bölməsinə baxın).
- Kuryer olduğunuz təqdirdə, fərdi məlumatlarınızı sizi kuryer xidmətinin təchizatçısı kimi inteqrasiya etmək və Müştərinin sifariş etdiyi çatdırılmasını yerinə yetirib-yetirməməyə qərar verməyə imkan vermək də daxil olmaqla, Müştəri ilə qarşılıqlı əlaqəni asanlaşdırmaq və çatdırılma təyin edildikdən sonra Müştəri ilə kommunikasiyanı asanlaşdırmaq üçün istifadə edirik (əlavə məlumat üçün "Fərdi məlumatların açıqlanması" bölməsinə baxın).
- Biz Müştərilər, Tərəfdaşlar və Kuryerlər arasında ödənişlərin edilməsini asanlaşdırmaq üçün fərdi məlumatlardan istifadə edə bilərik.
- Xidmət keyfiyyəti məsələlərinin həllinə kömək edilməsi və Müştərilər, Tərəfdaşlar və Kuryerlərin sorğularına cavab verilməsi də daxil olmaqla, dəstək göstərmək üçün fərdi məlumatları istifadə edə bilərik.
- Veb saytlarımıza və Bolt tətbiqlərimizə dair yenilikləri bildirmək üçün əlaqə məlumatlarından istifadə edirik.

Tətbiq olunan hüquqla icazə verildiyi hallarda yoxlamalar aparmaq (qanuni əsas: hüquqi öhdəliklər; qanuni mənafelər (qanuni və ya tənzimləyici tələblərə cavab vermək və təhlükəsiz xidmət göstərmək); hüquqi iddialar; və əhəmiyyətli ictimai maraqlar (cinayətin qarşısını almaq və ya aşkar etmək üçün məlumatın işlənilməsi)).

- Dələduzluq yolu ilə edilmiş ödənişlər də daxil olmaqla, dələduzluğun qarşısını almaq üçün səylərimizdə fərdi məlumatları istifadə edirik. Yanlış və ya qeyri-dəqiq məlumatlar verildikdə və dələduzluq aşkar edildikdə və ya bundan şübhə edildikdə, fərdi məlumatlarınız dələduzluğun qarşısının alınması agentliklərinə ötürülə bilər və bizim tərəfimizdən və ya onlar tərəfindən qeyd edilə bilər.
- Bəzi yurisdiksiyalarda qazanc haqqında məlumatları vergi orqanlarına və ya digər müvafiq orqanlara göndərə bilərik.

Tədqiqat və inkişaf məqsədləri üçün (qanuni əsas: qanuni maraqlar (bizə xidmətlərimizi yaxşılaşdırmağa imkan vermək üçün))

- İşimizi və xidmətlərimizi daha yaxşı başa düşmək üçün fərdi məlumatları analiz edərək veb saytlarımızı və tətbiqlərimizi (onların təhlükəsizlik xüsusiyyətləri də daxil olmaqla) yaxşılaşdırmaq üçün istifadə edə bilərik. Məsələn, Kuryerlərə tövsiyələr vermək və ya yeni Tərəfdaşları cəlb etmək üçün Bolt tətbiqi istifadəçilərinin coğrafi əhatə dairəsini təhlil etmək üçün onların marşrutlarının məlumatlarını toplayırıq.
- Bununla bağlı kömək etmək üçün fərdi məlumatlarınıza və davranış məlumatlarınıza (ziyarət etdiyiniz və ya qarşılıqlı əlaqə qurduğunuz veb saytdakı səhifələr və ya tətbiqlər, o cümlədən üçüncü şəxslər tərəfindən qanuni şəkildə əldə edilmiş və bizimlə paylaşılan fərdi məlumatlara və ya ictimaiyyətə açıq məlumatlara istinad edərək) əsasən sizə profillər tətbiq edə bilərik. Bu profillər reklam, analitika və dəstək göstərilməsinin bir hissəsi kimi istifadə edilə bilər.
- Bununla bağlı kömək etmək üçün sorğulardan və ya rəylərdən verilən fərdi məlumatları istifadə edə bilərik.

Sizə marketinq materialları təqdim etmək üçün (qanuni əsas: razılıq, qanuni maraq (sizin razılığınız tələb olunmadıqda, məhsul və xidmətlərimizlə əlaqəli xəbərləri sizə bildirməyimiz və bizim əlaqələrimizlə necə əlaqə qurduğunuzu təhlil etməyimizə imkan vermək üçün)

- Qanunla icazə verildiyi təqdirdə (sizə hər zaman gələcək mesajlardan imtina etmək üçün fürsət təmin ediləcəkdir), biz Bolt tətbiqi və seçilmiş biznes tərəfdaşlarımızın məhsulları və xidmətləri ilə bağlı reklam mesajları ilə sizinlə əlaqə qura bilərik. Marketinq və seçimlərinizi necə idarə etmək barədə daha ətraflı məlumat üçün aşağıdakı “İstifadəçilərə birbaşa marketinq” bölməsinə baxın.
- Onlayn təcrübənizi anlamaq və təhlil etmək və hansı tədbirlərin, məhsulların və xidmətlərin sizin üçün maraqlı olacağını müəyyənləşdirmək üçün çərəzlərdən və digər izləmə texnologiyalarından istifadə edə bilərik. Bu, veb saytlarımız, tətbiqlərimiz və ya marketinq e-poçtlarımızla necə əlaqədə olduğunuza istinadən ola bilər. Biz bu cür məlumatları (daxil olubolmadığınızdan asılı olmayaraq) fərdi məlumatlarla birləşdirə bilərik.

Qanuni öhdəliklərimizə riayət etmək üçün və huqüqi iddialara münasibətdə (qanuni əsas: hüquqi öhdəliklər; qanuni mənafelər (qanuni və ya tənzimləyici tələblərə riayət etmək və təhlükəsiz xidmət göstərmək); hüquqi iddialar; və əhəmiyyətli ictimai maraqlar (cinayətin qarşısının alınması və ya aşkarlanması üçün məlumatın işlənilməsi))

- Fərdi məlumatlarınızı şərtlərimizi tətbiq etmək və fərdi məlumatlarınızı dünyanın hər hansı bir yerində üçüncü tərəflərə, məhkəmə xidmətinə və / və ya tənzimləyici, hökumət və ya hüquq-mühafizə orqanlarına bu cür tərəflərin sorğusu, məhkəmə

prosesi və ya istintaqla əlaqədar olaraq açıqlamağımızı ehtiva edən qanuni və tənzimləyici tələblərimizi yerinə yetirmək üçün istifadə edə bilərik.
- Sizin məlumatlarınızla əlaqədar hüquq mühafizə, tənzimləyici, hökumət və ya məhkəmə orqanarı tərəfindən verilən hər hansı sorğu ilə bağlı qeyd apara bilərik.

Biznesimizi yenidən təşkil etmək və ya ona dəyişiklik etmək üçün (qanuni əsas: qanuni maraqlar (biznesimizi dəyişdirməyimizə imkan vermək üçün)).

- Əgər: (i) biznesimizin və ya onun bir hissəsinin üçüncü şəxsə satılması üçün danışıqlar apardığımız; (ii) üçüncü şəxsə satıldığımız; və ya (iii) yenidən təşkil olunduğumuz təqdirdə, təklif olunan satış və ya yenidən təşkili təhlil etmək üçün hər hansı səthi araşdırma çərçivəsində fərdi məlumatlarınızın bir hissəsini və ya hamısını müvafiq üçüncü tərəfə (və ya onun məsləhətçilərinə) ötürməyimiz lazım ola bilər.
- Fərdi məlumatlarınızı bu siyasətdə göstərilən eyni məqsədlər üçün istifadə etmələri üçün satışdan və ya yenidən təşkil edildikdən sonra yenidən təşkil edilmiş müəssisəyə və ya üçüncü tərəfə ötürməyimiz lazım ola bilər.

## AVTOMATLAŞDIRILMIŞ QƏRAR VERMƏ

Biz insan müdaxiləsi olmadan avtomatlaşdırılmış əsasda müəyyən qərarlar vermək üçün fərdi məlumatlarınızın avtomatik analizini apara bilərik. Avtomatlaşdırılmış qərarvermədən istifadə əməkdaşlarımızdan istifadə ilə müqayisədə səhvlərə daha az meylli, daha səmərəli və daha təhlükəsizdir. Buraya aşağıdakılarla bağlı qərarlar daxil ola bilər:

- Tətbiqimizi və xidmətlərimizi istifadə etməyinizə və ya istifadəyə davam etməyinizə icazə vermək - tətbiqlərimizi və xidmətlərimizi istifadə etməyinizə icazə veribverməyəcəyimiz haqqında avtomatik qərar qəbul etmək və ya tətbiqlərimiz və xidmətlərimizdən istifadənizi avtomatik olaraq dayandırmaq üçün sizinlə bağlı yoxlamaların, verifikasiya prosesləri və davranış təhlilinin (məsələn, davranışlarınızın çirkli pulların yuyulması və ya bilinən aldatmaya uyğun gəlməsi və ya əvvəlki təqdimatlarınızla uyğun gəlməməsi və ya əsl şəxsiyyətinizi qəsdən gizlətməyiniz) nəticəsi ilə əlaqədar məlumatdan istifadə edə bilərik. Biz bunun sizinlə müqavilə bağlamaq üçün lazım olduğunu və ya əhəmiyyətli ictimai maraqlar daxilində olduğunu (cinayətin qarşısını almaq və ya aşkar etmək üçün məlumatın işlənilməsi) əsas götürərək edirik.

- Qiymət müəyyən etmə - olduğunuz yer və dəqiq vaxt, Sifarişlərin çatdırılması ilə bağlı təxmin edilən səyahət müddəti və məsafəsi, tətbiqi eyni vaxtda istifadə edən Müştərilər və Kuryerlərin sayı və yaxınlıqdakı xidmətlərimiz, təxmin edilən tıxac və çatdırılmalarla bağlı təxmin edilən səyahət müddətinin müəyyənləşdirilməsi ilə əlaqəli digər məlumatlardan istifadə edə bilərik.

- Şikayətlərin həlli - biz çat funksiyamız vasitəsilə müştərilərə dəstək komandamıza şikayətləriniz barədə təqdim etdiyiniz məlumatdan istifadə edə bilərik. Şikayətlərinizə aid

olan məlumat avtomatlaşdırılmış cavab yaratmaq üçün istifadə oluna bilər, daha sonra isə yekun qərarı vermək üçün əməkdaş tərəfindən qiymətləndirilir.

Yuxarıda göstərilən avtomatlaşdırılmış qərarvermə hallarının hər biri ilə əlaqədar olaraq qərarın insan tərəfindən nəzərdən keçirilməsini tələb etmək; "Sizin fərdi məlumatlarınıza münasibətdə hüquqlarınız" bölməsində qeyd olunduğu kimi, fərdi məlumatlarınızın avtomatlaşdırılmış qərarvermə məqsədləri üçün işlənilməsinə etiraz etmək; və qərarın nəticəsinə etiraz etmək hüququnuz var.

Nəzərinizə çatdırırıq ki, avtomatlaşdırılmış qərarverməyə etiraz etmək hüququnuza müvafiq qanun və qaydalarla icazə verilən müəyyən istisnalar və məhdudiyyətlər şamil oluna bilər. Biz sizə hüquqlarınızı həyata keçirməyin nəticələri və avtomatlaşdırılmış qərarverməyə etirazla əlaqədar proseslər haqqında dəqiq məlumat təqdim edəcəyik.

Tətbiq olunan hüquqla icazə verildiyi, o cümlədən məlumatların verilməsi ticarət sirrinin açıqlanmasına səbəb olacağı və ya dələduzluğun və ya digər cinayətlərin qarşısının alınmasına və ya aşkarlanmasına müdaxilə edəcəyi təqdirdə, biz tələbi rədd edə bilərik. Lakin, ümumiyyətlə, bu hallarda, cavabımız alqoritm və mənbə məlumatlarının gözlənildiyi kimi səhvsiz və qərəzsiz fəaliyyət göstərdiyini yoxlamaqla (və ya müvafiq üçüncü tərəfin yoxlamasını tələb etməklə) məhdudlaşacaqdır.

Tətbiq olunan məlumatların qorunması qanunu ilə malik olduğunuz hüquqlar (və bunlardan necə istifadə etməli olduğunuz) haqqında daha ətraflı məlumat üçün, "Fərdi məlumatlarınızla əlaqədar hüquqlarınız" adlı bölməyə baxın.

## İSTİFADƏÇİLƏRƏ BİRBAŞA MARKETİNQ

Biz sizinlə Bolt tətbiqi və seçilmiş biznes tərəfdaşlarımızın məhsulları və xidmətləri ilə əlaqədar e-poçt, SMS, telefon, sosial media vasitəsilə reklam mesajları ilə əlaqə qura bilərik və qanunla tələb olunduğu hallarda, bu cür marketinq növlərindən birini veb saytımızda və ya Bolt tətbiqimizdə həyata keçirmək üçün məlumatlarınızı topladığımız zaman razılığınızı istəyəcəyik.

Artıq birbaşa marketinq mesajları almaq istəmirsinizsə, zəhmət olmasa, marketinq mesajımızın qeyd hissəsində "Birbaşa marketinq mesajlarına abunəliyi dayandır" bağlantısını vurun. Siz həmçinin Bolt Tətbiqinin Profil bölməsindən və ya aşağıda "Suallar və yeniləmələr" bölməsində göstərilən əlaqə məlumatları vasitəsilə bizimlə əlaqə saxlayaraq imtina edə bilərsiniz.

# FƏRDİ MƏLUMATLARIN ÜÇÜNCÜ TƏRƏFLƏRƏ AÇIQLANMASI

## FƏRDİ MƏLUMATLARIN ÜMUMİ AÇIQLANMASI

Bolt yuxarıdakı "Biz bu fərdi məlumatları necə və niyə istifadə edirik" başlıqlı bölmədə göstərilən məqsədlər və qanuni əsaslar üçün fərdi məlumatlarınızı üçüncü şəxslərlə paylaşır və onlara açıqlayır. Bu üçüncü tərəflərə Müştərinin sifariş verdiyi Tərəfdaşlar, Yeməkləri çatdıran Kuryerlər, digər xidmət təminatçıları, məsləhətçilər və bizim qrup şirkətlərimiz daxil ola bilər.

## FƏRDİ MƏLUMATLARIN HÜQUQ-MÜHAFİZƏ VƏ İDDİALARLA BAĞLI AÇIQLANMASI

Bolt, xidmətimizdən istifadə edən bütün müştərilərin və kuryerlərin təhlükəsizliyini təmin etməyi öhdəsinə götürür. Biz bütün qanun pozuntularına dair müraciətlərlə ciddi şəkildə davranırıq və öz mülahizəmizə əsasən, üçüncü tərəflərə (o cümlədən, kuryerlər və müştərilər arasında), hüquq mühafizə, tənzimləyici, hökumət və ya məhkəmə orqanlarına tətbiq olunan hüquq və ya qaydalarla tələb olunduğu hallarda və ya zəruri olduğunu hiss etdiyimiz təqdirdə, könüllü məlumat vermək hüququnu özümüzdə saxlayırıq.

Üçüncü şəxslər, hüquq-mühafizə, tənzimləyici, hökumət və ya məhkəmə orqanlarının inzibati və ya cinayət istintaqı üçün və ya hüquqi iddialarla əlaqədar olaraq fərdi məlumatlarınız barədə məlumat tələb etdiyini bildiyimiz təqdirdə, biz tətbiq olunan hüquq və ya qaydaların tələbinə uyğun olaraq və ya onların tələbi ağlabatan olduqda və bu cür fərdi məlumatları təqdim edə bildiyimiz təqdirdə, biz onların tələbinə riayət edəcəyik.

Təqdim edə biləcəyimiz fərdi məlumatlar aşağıdakıları əhatə edə bilər:

- ad(lar);
- doğum tarixi (tətbiq edilərsə);
- əlaqə nömrəsi;
- ev ünvanı (tətbiq edilərsə);
- Sifarişlər və sifariş olunmuş Yeməklər haqqında təfərrüatlar, o cümlədən yemək seçimləri; və
- Müştəri, Kuryer və ya müvafiq üçünçü şəxs tərəfindən verilmiş şikayətin təfərrüatları.

Bolt, öz mülahizəsinə əsasən, bu cür üçüncü şəxslərə, hüquq-mühafizə, tənzimləyici, hökumət və ya məhkəmə orqanlarına fərdi məlumatlarınızı təqdim etdiyimiz barədə bildiriş verə bilər.
Təhlükəsizliyə təhlükə yarada bilən və ya cinayət tərkibli hərəkət və ya davranışdan xəbərdar olduqda, biz öz təşəbbüsümüzlə polisə məlumat vermək hüququmuzu özümüzdə saxlayırıq.

## MÜŞTƏRİ VƏ KURYERLƏRİN ARASINDA FƏRDİ MƏLUMATLARIN AÇIQLANMASI

Kuryerlərin fərdi məlumatları Kuryer çatdırılma xidməti müraciətini qəbul etdikdən və Müştəri ilə Kuryer arasında çatdırılma xidməti üçün müqavilə bağlandıqdan sonra Müştərilərə açıqlanır. Müştəri Kuryerin adını və Kuryerin coğrafi yerini görəcəkdir. Eyni zamanda, Müştərinin fərdi məlumatları Müştərinin çatdırılma xidməti üçün müqavilə bağladığı Kuryerə açıqlanır. Bolt tətbiqi vasitəsilə Kuryer Müştərinin adını və soyadının baş hərfini, Müştərinin coğrafi yerini və Müştəri tərəfindən verilmiş Sifarişin məlumatlarını (Sifarişin verildiyi Tərəfdaş da daxil olmaqla) və Müştərinin əlaqə üçün telefon nömrəsini görəcək.

Kuryer və Bolt arasında bağlanmış məlumatın işlənilməsi müqaviləsinə əsasən, çatdırılma xidməti göstərildikdən sonra, Kuryerin çatdırılma xidmətinin icrası ilə əlaqəli Müştəri məlumatlarını maksimum 1 ay müddətində saxlamaq hüququ var.

Nəzərinizə çatdırırıq ki, Müştərilərin fərdi məlumatları yuxarıdakı “Fərdi məlumatların hüquq-mühafizə və iddialarla bağlı açıqlanması” bölməsinə əsasən hüquqi iddialarla əlaqədar olaraq Kuryerlərə və ya əksinə açıqlana bilər.

## MÜŞTƏRİ VƏ TƏRƏFDAŞLAR ARASINDA FƏRDİ MƏLUMATLARIN AÇIQLANMASI

Müştərilərin fərdi məlumatları Müştəri Sifariş verdikdən sonra Tərəfdaşa açıqlanır. Tərəfdaş, Müştərinin adını və soyadının baş hərfini, əlaqə üçün telefon nömrəsini, Müştəri tərəfindən Sifarişlə birlikdə təqdim edilən hər hansı məlumatla (məsələn, Sifarişi verərkən Müştəri tərəfindən açıqlanarsa, yemək seçimləri, yeməyin bişirilməsi seçimləri, hər hansı allergiya haqqında məlumat) birlikdə Sifariş haqqında məlumatları görəcəkdir.

Tərəfdaş və Bolt arasında bağlanmış məlumatın işlənilməsi müqaviləsinə əsasən, çatdırılma xidməti göstərildikdən sonra, Tərəfdaşın xidmətin icrası ilə əlaqəli Müştəri məlumatlarını maksimum 1 ay müddətində saxlamaq hüququ var.

Nəzərinizə çatdırırıq ki, Müştərilərin fərdi məlumatları yuxarıdakı “Fərdi məlumatların hüquq-mühafizə və iddialarla bağlı açıqlanması” bölməsinə əsasən hüquqi iddialarla əlaqədar olaraq Tərəfdaşlara və ya əksinə açıqlana bilər.

## KURYERLƏR VƏ TƏRƏFDAŞLAR ARASINDA FƏRDİ MƏLUMATLARIN AÇIQLANMASI

Kuryerlərin fərdi məlumatları Müştəri və Kuryer arasında çatdırılma müqaviləsi bağlandıqdan sonra Tərəfdaşa açıqlanır. Tərəfdaş Kuryerin adını, əlaqə üçün telefon nömrəsini və Kuryerin coğrafi yerini görəcəkdir.

Tərəfdaş və Bolt arasında bağlanmış məlumatın işlənilməsi müqaviləsinə əsasən, çatdırılma xidməti göstərildikdən sonra, Tərəfdaşın xidmətin icrası ilə əlaqəli Kuryer məlumatlarını maksimum 1 ay müddətində saxlamaq hüququ var.

Nəzərinizə çatdırırıq ki, Kuryerlərin fərdi məlumatları yuxarıdakı "Fərdi məlumatların hüquq-mühafizə və iddialarla bağlı açıqlanması" bölməsinə əsasən hüquqi iddialarla əlaqədar olaraq Tərəfdaşlara və ya əksinə açıqlana bilər.

## BİZ SİZİN FƏRDİ MƏLUMATLARINIZI NECƏ QORUYURUQ

İnternet və ya veb saytlar üzərindən heç bir məlumat ötürülməsinin müdaxilədən qorunmasına zəmanət verilmir. Lakin, fərdi məlumatların qorunması ilə bağlı qanunvericiliyin tələblərinə uyğun olaraq fərdi məlumatlarınızı qorumaq üçün iqtisadi baxımdan ağlabatan fiziki, elektron və prosedur təhlükəsizlik tədbirləri görürük.

Bizə təqdim etdiyiniz bütün fərdi məlumatlar bizim və ya sub-podratçılarımızın təhlükəsiz serverlərində saxlanılır və təhlükəsizlik siyasətimizə və standartlarımıza uyğun olaraq onlara daxil olunur və istifadə olunur. Sizə veb saytımızın müəyyən hissələrinə və ya mobil tətbiqlərimizə daxil olmağa imkan verən şifrə verdiyimiz (və ya siz seçdiyiniz) təqdirdə, bu şifrənin konfidensial saxlanılması və sizə bildirdiyimiz digər təhlükəsizlik prosedurlarına riayət edilməsinə görə siz məsuliyyət daşıyırsınız. Şifrənizi heç kimlə paylaşmamağınızı xahiş edirik.

## FƏRDİ MƏLUMATLARIN BEYNƏLXALQ ÖTÜRÜLMƏSİ

Bolt, fərdi məlumatları Azərbaycan Respublikası xaricindəki ölkələrdə yerləşən üçüncü tərəf xidmət təminatçılarımıza belə üçüncü tərəflərlə müqavilələrə əsasən açıqlaya bilər.

Bunlara aşağıdakılar daxildir:

- Bizim şirkətlər qrupumuz;
- İT və ya ödəniş xidmətləri təminatçıları və ya kuryer verifikasiyasının yoxlanılması təminatçıları. Nəzərinizə çatdıraq ki, Bolt yerli ödənişlərin işlənilməsi üçün üçüncü tərəf ödəniş xidməti təminatçısından istifadə edir - DRAKARİS MMC; və
- digərləri ilə yanaşı, "Zone Media LTD" və / və ya "Amazon Web Services İnc" tərəfindən Zendesk adlı bir xidmət vasitəsilə təmin edilən məlumat mərkəzləri.

Fərdi məlumatları Azərbaycan Respublikası içərisindən Azərbaycan Respublikası xaricinə ötürdüyümüz zaman, fərdi məlumatlarınızı təsdiq edilmiş mühafizə tədbirlərinə əsasən ötürəcəyik, bu şərtlə ki, Azərbaycanın məlumatların qorunması qanunu ilə bu cür rəsmiləşdirmələr olmadan bu cür ötürmələr etməyimizə icazə verilmiş olmasın. İstifadə olunan təhlükəsizlik tədbirləri haqqında daha ətraflı məlumat üçün aşağıda "Suallar və yeniləmələr" bölməsində göstərilən əlaqə məlumatları vasitəsilə bizimlə əlaqə saxlayın.

Yalnız Bolt şirkətlər qrupunun və tərəfdaşların səlahiyyətli işçilərinin fərdi məlumatlara daxil olmaq hüququ vardır və onlar məlumatlara yalnız xidmətlərin istifadəsi ilə bağlı məsələləri (nəqliyyat xidmətləri ilə bağlı mübahisələr daxil olmaqla) həll etmək məqsədi ilə daxil ola bilərlər.

## SİZİN FƏRDİ MƏLUMATLARINIZA MÜNASİBƏTDƏ HÜQUQLARINIZ

Marketinq əlaqələrindən istənilən vaxt imtina etmək hüququnuz var. Bunu etmək üçün, zəhmət olmasa marketinq e-poçtumuzun başlığındakı “Birbaşa marketinq mesajlarına abunəliyi dayandırın” bağlantısını vurun. Bolt mobil Tətbiqinin Profil bölməsindən və ya aşağıda “Suallar və yeniləmələr” bölməsində göstərilən əlaqə məlumatları vasitəsilə də bizimlə əlaqə saxlayaraq imtina edə bilərsiniz.

Müəyyən şərtlər daxilində aşağıdakı hüquqlarınız ola bilər:

- haqqınızda saxladığımız fərdi məlumatların təfərrüatları və fərdi məlumatlarınızın nüsxəsi ilə təmin edilmək;
- saxladığımız fərdi məlumatların dəqiqləşdirilməsini tələb etmək. Bununla bağlı bizə kömək etmək üçün, zəhmət olmasa, Bolt Tətbiqində istifadəçi hesabınızı / tətbiqdəki Profil məlumatlarınızı yeniləyin və ya aşağıda “Suallar və yeniləmələr” bölməsində göstərilən əlaqə məlumatları vasitəsilə bizimlə əlaqə saxlayaraq fərdi məlumatlarınıza olunmalı hər hansı yenilənmələr barədə bizə məlumat verin;
- razılığınızı geri götürmək (bizim məlumatın işlənilməsi fəaliyyətimiz sizin razılığınıza əsaslandığı təqdirdə);
- bizə təqdim etdiyiniz fərdi məlumatların maşın tərəfindən oxunaqlı elə bir formatda nüsxəsi ilə təmin edilmək ki, siz onu başqa bir provayderə ötürə biləsiniz və ya başqa bir fərdi məlumatların mülkiyyətçisinə ötürməyimizi bizdən xahiş edə biləsiniz (bizim məlumatın işlənilməsi fəaliyyətimiz müqavilənin icrasına və ya razılığa əsaslandığı təqdirdə);
- fərdi məlumatlarınızı silməyimizi tələb etmək (həmçinin, bizim məlumatın işlənilməsi fəaliyyətimizin sizin razılığınıza və ya qanuni maraqlarımıza əsaslandığı təqdirdə). Nəzərinizə çatdırırıq ki, cihazınızdakı Bolt tətbiqinin silinməsi fərdi məlumatlarınızın silinməsinə səbəb olmur;
- şikayət araşdırılarkən bizim fərdi məlumatlarınızdan istifadə üsullarımızı məhdudlaşdırmaq;
- fərdi məlumatlarınızın işlənilməsinə etiraz etmək (bizim məlumatları işləməyimiz qanuni maraqlarımıza əsaslandığı təqdirdə); və
- hüquqlarınıza əhəmiyyətli təsir göstərən fərdi məlumatlarınızın işlənilməsinə, o cümlədən avtomatik işlənilməsinə və ya profilləşdirilməsinə istənilən zaman etiraz etmək. Verdiyimiz avtomatlaşdırılmış qərarın əsaslandığı məntiqin izahını tələb etmək hüququnuz da var. zəhmət olmasa, yuxarıdakı "Avtomatlaşdırılmış Qərar Vermə" bölməsinə baxın.

Sizin bu hüquqlardan istifadə etməyiniz ictimai mənafeyi (məsələn, cinayətin qarşısının alınması və ya aşkarlanması) və bizim maraqlarımızı (məsələn, qanuni imtiyazın qorunması) qorumaq üçün müəyyən istisnalara tabedir.

Hüquqdan istifadə etmək istəyirsinizsə, aşağıda “Suallar və yeniləmələr” bölməsində göstərilən əlaqə məlumatları vasitəsilə müştəri xidmətlərimizlə əlaqə saxlamağınızı tövsiyə edirik. Bu hüquqlardan hər hansı birini istifadə etdiyiniz təqdirdə, buna hüququnuzun olmasını yoxlayacağıq və 7 gün ərzində cavab verəcəyik, bu şərtlə ki, tətbiq olunan hüquqla daha uzun müddət nəzərdə tutulmuş olmasın.

## ÜÇÜNCÜ TƏRƏF KEÇİDLƏRİ

Veb saytlarımız və tətbiqlərimizdə digər üçüncü tərəf saytlarına keçidlər ola bilər. Bu üçüncü tərəf veb saytlarından hər hansı birinə keçid etdiyiniz təqdirdə, nəzərinizə çatdırırıq ki, biz onların öz məxfilik siyasətlərinə sahib olduqlarını və onların siyasətləri və ya fərdi məlumatlarınızın işlənilməsi üçün hər hansı bir məsuliyyət və ya öhdəlik qəbul etmirik. Fərdi məlumatları üçüncü tərəf saytlarına təqdim etməzdən əvvəl həmin siyasətləri yoxlayın.

## SUALLAR VƏ YENİLƏMƏLƏR

Bəzi fərdi məlumatlar Bolt Tətbiqində baxıla və düzəldilə bilər. Bu məxfilik siyasəti və ya fərdi məlumatlarınızla bağlı mübahisələriniz, suallarınız və ya narahatlıqlarınız varsa, əvvəlcə bizə aşağıdakı ünvanlar vasitəsilə müraciət etməyinizi tövsiyə edirik:

**"Bolt Services AZ" Məhdud Məsuliyyətli Cəmiyyəti** epoçt ünvanı:

privacy@bolt.eu

Ünvan: AZ1029, Bakı şəhəri, Nərimanov rayonu, Mərkəzi

Kommunikasiya, ev 1965

Sizin istədiyiniz zaman yurisdiksiyanızda olan nəzarət orqanına şikayət etmək hüququnuz var. Aİ-nin rezidentisinizsə, müvafiq məlumatın qorunması orqanının təfərrüatlarını buradan https://edpb.europa.eu/about-edpb/board/members_en tapa bilərsiniz.

Bu məxfilik siyasəti ən son 17.08.2023-ci il tarixində yenilənmişdir. Gələcəkdə bu məxfilik siyasətində edə biləcəyimiz hər hansı bir dəyişiklik bu səhifədə yerləşdiriləcək və münasib olduqda e-poçtla bildiriləcəkdir. Zəhmət olmasa, bu məxfilik siyasətindəki yeniliklər və ya dəyişikliklər barədə məlumatlı olmaq üçün mütəmadi olaraq yoxlayın.